# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

**Yeni Azərbaycan Partiyası xalqın partiyasıdır**




6

SƏS

№ 211 (7379)

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

18 noyabr 2025-ci il.
Qiyməti 60 qəpik

# Azərbaycan və Mərkəzi Asiya ölkələri arasında yeni əməkdaşlıq platforması



2

# "Tramp yolu" qələbəyə aparacaqmı?



5

**Azadlıq mübarizəsinin başlanğıcı-17 noyabr Milli Dirçəliş Günü**




3

**İnsanları 35 yaşdan sonra niyə işə götürmək istəmirlər?**



6

**Bakıda avtomobil qaçıran şəxslər yaxalanıb**



8

## Tramp təxribat maşını olan BBC-ni tarixin arxivinə göndərir




4

## Uşaqlar və hüquqlar: zorakılığı necə dayandırmalı?



4

# Azərbaycan və Mərkəzi Asiya ölkələri arasında yeni əməkdaşlıq platforması






***"Azərbaycanla Mərkəzi Asiya dövlətləri arasında münasibətlər xüsusi xarakter daşıyır. Bizi çoxəsrlik ortaq tarix, mənəvi və mədəni irs, qardaşlıq, dostluq, həmrəylik birləşdirir. Biz bu əlaqələri nəinki qoruyub saxlamışıq, həm də onlara strateji tərəfdaşlıq xarakterinə malik olan yeni dinamika bəxş etmişik.***

## *Prezident İlham Əliyev: "Bu gün Azərbaycan və Mərkəzi Asiya Şərqlə Qərb, Şimalla Cənub arasında birləşdirici bənd və körpüdür"*



Son illər yüksəksəviyyəli qarşılıqlı səfərlər müntəzəm xarakter alıb. Son üç ildə mən Mərkəzi Asiya ölkələrində 14 dəfə səfərdə olmuşam. Bu müddət ərzində həmkarlarım'. Bu fikirləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 16-da Özbəkistanın paytaxtı Daşkənddə Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə çıxışı zamanı bildirib.

Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə Azərbaycanın da tamhüquqlu əsasda qoşulduğu yeni formatda əməkdaşlığın perspektivləri açıqlanıb.

İclasa sədrlik edən Özbəkistan Prezidenti Şavkat Mirziyoyev çıxışında qeyd edib: " Bu gün Mərkəzi Asiya dinamik inkişaf və səmərəli əməkdaşlıq məkanıdır, burada davamlı artım və rifah üçün yeni imkanlar açılır. Region sürətlə qlobal iqtisadiyyata inteqrasiya olunur: investisiya cəlbediciliyi artır, üçüncü ölkə bazarlarına ixrac imkanları və tranzit potensialı genişlənir. Ötən il region ölkələri arasında qarşılıqlı ticarət 10,7 milyard dollara çatıb və Mərkəzi Asiyaya ümumi investisiyanın həcmi 17 faiz artıb".

Bu Görüşdə qardaş xalqlar üçün tarixi bir gün olub. Azərbaycan Respublikasının tamhüquqlu iştirakçı qismində Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşü formatına qoşulmasına dair prinsipial qərarlar qəbul edilib. Mərkəzi Asiya ilə Cənubi Qafqaz arasında güclü bir körpü qurulacaq və vahid əməkdaşlıq məkanının formalaşmasına yol açılacaq. Bu, sözsüz ki, hər iki regionun strateji qarşılıqlı əlaqəsini və dayanıqlılığını gücləndirəcək. İclasda, ilk növbədə, mövcud görüşlərin regional dialoqun məşvərət formatından strateji Mərkəzi Asiya Birliyi formatına çevrilməsi təklif edilib. Vurğulanıb ki, bu istiqamətdə ilk addımlar Məşvərət görüşləri haqqında Əsasnamənin hazırlanması, rotasiyalı Katibliyin yaradılması və milli koordinatorların prezidentlərin nümayəndələri səviyyəsinə yüksəldilməsi ola bilər.

### "Azərbaycanın bu formata qoşulması ilə regionun qlobal miqyasda səsi daha əhəmiyyətli olacaq"

İclasda, ilk növbədə, mövcud görüşlərin regional dialoqun məşvərət formatından strateji Mərkəzi Asiya Birliyi formatına çevrilməsi təklif edilib. Vurğulanıb ki, bu istiqamətdə ilk addımlar Məşvərət görüşləri haqqında Əsasnamənin hazırlanması, rotasiyalı Katibliyin yaradılması və milli koordinatorların prezidentlərin nümayəndələri səviyyəsinə yüksəldilməsi ola bilər.

Həmrəyliyin gücləndirilməsi və birgə inkişafa can atmaq Mərkəzi Asiyanın beynəlxalq mövqeyinin möhkəmlənməsinə və qlobal rolunun artırılmasına töhfə verir. "Mərkəzi Asiya +" formatlarının qarşılıqlı fəaliyyəti güclənib. Region nüfuzlu beynəlxalq platformalarda vahid mövqedən çıxış edir. Şübhəsiz ki,Azərbaycanın bu formata qoşulması ilə regionun qlobal miqyasda səsi daha əhəmiyyətli olacaq. Azərbaycanın iştirakı ilə formatın genişləndirilməsi Mərkəzi Asiyanın qarşısında xüsusilə beynəlxalq tranzit, logistika və energetika sahələrində yeni imkanlar, geniş əməkdaşlıq üfüqləri açacaq. "Azərbaycanın Mərkəzi Asiya ölkələrinin əməkdaşlıq formatına qoşulması ilə bağlı qərara görə hörmətli həmkarlarıma təşəkkür etmək istəyirəm. Bu qərar münasibətlərimizin dostluq və qardaşlıq xarakterini bir daha təsdiqləyir, həmçinin geniş coğrafi məkanda əməkdaşlığın və qarşılıqlı fəaliyyətin möhkəmlənməsinə xidmət edəcəkdir. Eyni zamanda, bizim formatımızda sədrliyi qəbul etdiyinə görə qardaş Türkmənistanı təbrik etmək istəyirəm.",- deyə dövlət başçımız çıxışında bildirib.

Azərbaycan artıq üçüncü dəfədir ki, Mərkəzi Asiya sammitlərində iştirak edir. 2023-cü ildə Tacikistan Prezidenti hörmətli Emoməli Şaripoviç Rəhmonun, 2024-cü ildə isə Qazaxıstan Prezidenti Kasım-Jomart Kemeleviç Tokayevin dəvəti ilə sammitlərin işində iştirak edib.

### "Mərkəzi Asiya ölkələrinin Azərbaycana göstərdiyi qardaş dəstəyini yüksək qiymətləndiririk"

Mərkəzi Asiya dövlətləri ilə Azərbaycanın əlaqələrinin sürətlə genişlənməsi regionda yeni siyasi və iqtisadi reallıqların formalaşmasına səbəb olur. Bu dinamika, xüsusilə, Azərbaycanın Vətən müharibəsində qazandığı tarixi Qələbədən sonra daha da güclənib və yeni regional konsepsiyaların aktuallaşmasına gətirib çıxarıb.

"Ölkəmiz öz ərazi bütövlüyünü və suverenliyini bərpa etdikdən sonra işğaldan azad olunmuş ərazilərin dirçəldilməsi üzrə genişmiqyaslı işlərə başlayıb. Biz bu məsələdə Mərkəzi Asiya ölkələrinin Azərbaycana göstərdiyi qardaş dəstəyini yüksək qiymətləndiririk". Bu sözləri Prezident İlham Əliyev Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə çıxışı zamanı söyləyib.

"Xüsusilə qeyd edək ki, artıq Füzuli şəhərində Mirzə Uluqbəy adına məktəb və Kurmanqazı adına Uşaq İncəsənət Mərkəzi, Ağdamda isə Manas məktəbi fəaliyyət göstərir. Bu, özbək, qazax və qırğız qardaşlarımızın hədiyyələridir", - deyən dövlətimizin başçısı xatırladıb ki, bu ilin oktyabrında Füzulidə Türkmənistanın qardaşlıq dəstəyinin rəmzinə çevriləcək məscidin təməli qoyulub.

Region ölkələrində ətraf mühit, iqlim və su ehtiyatları çatışmazlığı məsələlərinin artan aktuallığı fonunda Mərkəzi Asiya üçün Yaşıl İnkişaf Konsepsiyasının qəbulunun sürətləndirilməsinin vacibliyi qeyd edilib. Regionda artan su çatışmazlığı nəzərə alınmaqla, 2026-2036-cı illərin "Mərkəzi Asiyada rasional su istifadəsi üçün praktik Fəaliyyət Onilliyi" elan edilməsi təklif olunub.

Mədəni və humanitar əməkdaşlığın genişləndirilməsinə xüsusi diqqət yetirilib. Bu kontekstdə Daşkənddəki İslam Sivilizasiyası Mərkəzinin gənclərin elmi və mənəvi maariflənməsi üçün faydalı platformaya çevriləcəyinə ümid ifadə olunub. Eyni zamanda, Daşkənddə Beynəlxalq Mənəvi İrs və Təhsil Konqresinin müntəzəm olaraq keçirilməsi məqsədəuyğun hesab edilib. Strateji cəhətdən mühüm olan Çin-Qırğızıstan-Özbəkistan dəmir yolunun tikintisi logistikanı birləşdirməklə yanaşı, həm də formatını genişləndirəcək, Asiya və Avropanın çox böyük bazarlarına ən qısa yolu açacaq. Bu kontekstdə Zəngəzur dəhlizinin tikintisi layihəsi Çin-Qırğızıstan-Özbəkistan dəmir yolunun məntiqi və strateji davamı kimi görünür.

Göründüyü kimi, Azərbaycan ilə Orta Asiya ölkələri arasındakı inteqrasiya yalnız regional güc birliyi deyil, həm də qlobal rəqabətdə özünəməxsus modelini quracaq bir Avrasiya vizyonunun əsasını təşkil edir.

***Zümrüd BAYRAMOVA***




# Azadlıq mübarizəsinin başlanğıcı-17 noyabr Milli Dirçəliş Günü

***Bugünkü güclü və qüdrətli Azərbaycanın qurulması çətin, ancaq şərəfli yol keçməklə əldə edilib. Bu yolda minlərlə şəhid verən xalqımız heç zaman mübarizəsindən dönməyib, hədəfindən, məqsədindən əl çəkməyib. Hələ sovetlər birliyi dönəmində dəfələrlə xalqımız müstəqil dövlətçiliyini qurmaq uğrunda mübarizə aparıb, ortaya sərt və qətiyyətli mövqe qoyub. Deməк olar ki, xalqımızın davamlı mübarizəsinin ən yüksək nöqtəsi 1988-ci ilin noyabr günlərini təşkil edir. Həmin günlərdən başlayaraq əhali böyük coşqu ilə ayağa qalxaraq meydanlara axışdı.***

Mübarizə dönməz və qətiyyətli oldu. Bu baxımdan 17 Noyabr – Milli Dirçəliş Günü Azərbaycanın müstəqilliyinin bərpa edilməsində tarixi rol oynayıb. 1988-ci ilin noyabrın 17-də Şuşada yerləşən məşhur, əzəmətli palıd, çinar meşəsi - Topxana meşəsinin qırılmasına etiraz əlaməti olaraq Azərbaycan xalqı Azadlıq meydanında (keçmiş Lenin meydanı) ilk mitinq keçirdi. Mitinqin təşkil olunmasında məqsəd xalqın səsini Mərkəzə - Moskvaya çatdırmaq idi. 1988-ci il noyabrın 17-də Bakının Azadlıq meydanında Sovet imperiyasının xalqımıza qarşı apardığı anti-Azərbaycan siyasətinə etiraz əlaməti olaraq Azərbaycan xalqının mitinqi başlandı. Meydana yüz minlərlə insan axışdı. O dövrün dünya mətbuatı ardıcıl olaraq Azərbaycanın baş meydanında keçirilən etiraz aksiyalarında silsilə yazılar dərc edir, reportajlar yayımlayırdı. Aksiyalar xalqın azadlıq mübarizəsinə çevrildi. Azərbaycan xalqının mübarizə zəmini qırmaq üçün sovetlər birliyinin rəhbərliyi, xüsusilə də M.Qarboçov və ətrafı müxtəlif təzyiq vasitələrindən istifadə etdilər. Ermənilərdən istifadə olunması daha geniş xarakter aldı.

### Birlik və bərabərliyin bəhrəsi

1988-ci ilin ilk günlərində Ermənistanın Azərbaycana qarşı açıq təcavüzü başlandı. Moskvanın dəstəyinə arxalanan ermənilər planlı şəkildə, Ermənistanda yaşayan 200 mindən çox azərbaycanlını öz ata-baba yurdlarından kütləvi surətdə qovdular. Ermənilər azərbaycanlıları yurd-yuvalarından qovmaqla kifayətlənməyib, insanları öldürür, evlərini qarət edir, yandırırdılar. Ermənilərin Qərbi Azərbaycanda azərbaycanlılara qarşı törətdikləri vandalizminə M.Qorbaçov və onun ətrafı heç bir reaksiya verməədilər. Ermənilər bununla da kifayətlənmədilər. 1988-ci ilin fevralın əvvəllərində Azərbaycanın Qarabağ bölgəsində iğtişaşlar törətdilər. Onlar Azərbaycanın tarixi torpağı olan Qarabağı Azərbaycandan qoparıb Ermənistana birləşdirməsi haqqında məsələ qaldırdılar. 1988-ci ilin noyabrın 17-də Bakının əsas meydanı sayılan Azadlıq meydanında Sovet dövlətinin xalqımıza qarşı apardığı yanlış siyasətinə etiraz əlaməti olaraq Azərbaycan ictimaiyyətinin sonu bilinməyən mitinqi başlandı. O vaxt bütün xalq bir yumruq kimi birləşmişdi. Azərbaycanda bu hadisələr milli azadlıq hərəkatı kimi qiymətləndirilir və Vətənimizin istiqlaliyyət qazanmasında əsas amil sayılır. 1992-ci ildən 17 noyabr Milli Dirçəliş Günü kimi qeyd olunur. Xalqımız bir yumruq kimi sıx birləşərək bütün dünyaya sübut etdi ki, xalqımız azad olmağa layiqdir. Qüdrətli xalq hərəkatının əzəməti Respublikamızın bütün şəhər və rayonlarını bürüdü. Dekabrın 5-dək davam edən mitinqlər SSRİ-də ən iri miqyaslı kütləvi etiraz aksiyası idi. Bunları görən rəsmi Moskva Azərbaycanda ilk dəfə fövqəladə vəziyyət elan edərək, SSRİ-in müxtəlif ərazilərindən dislokasiya edilmiş Daxili Qoşun Qüvvələrini Meydanda yerləşdirməklə dekabrın 3-dən 4-ə keçən gecə mitinqi dağıtdı. Moskvanın qəddar üsullardan istifadə etməklə xalqın mübarizə əzmini qırmağa çalışması nəticə vermədi. Əhali qəzəbli şəkildə müstəqillik mübarizəsini davam etdirdi. Bu mübarizə 1990-cı ilim 20 Yanvar faciəsi ilə nəticələndi. İmperiya cəlladları Azərbaycan xalqına qarşı qətliam həyata keçirdi. Faciənin törədilməsi ilə Moskva Azərbaycan xalqını informasiya blokadasına almağı düşündü. Ancaq Azərbaycan xalqının dahi oğlu, Ulu Öndərimiz Heydər Əliyev 1990-cı il yanvarın 21-də Sovet rejiminin qadağalarına rəğmən, həyatını təhlükə qarşısında qoyaraq Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəldi və dünya ictimaiyyətini Moskvanın törətdiyi vandalizm aktı ilə məlumatlandırdı. Məhz Dahi Öndərimiz Heydər Əliyevin 20 Yanvar faciəsi ilə bağlı bəyanatından sonra dünya birliyi, ayrı-ayrı ölkələr Bakıda baş verən qırğın haqqında danışmağa, yazmağa başladılar. Bu da sonrakı mərhələdə Moskvanın çöküşünü dərinləşdirdi.

Ulu Öndərimiz Heydər Əliyev xalqın çağırışı ilə ikinci dəfə hakimiyyət gəlişindən sonra diqqət ayırdığı əsas mərhələlərdən biri də 20 Yanvar hadisələrinə hüquqi qiymətin verilməsi oldu. Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 20 Yanvar faciəsinə ilk siyasi qiymət verən 21 noyabr 1990-cı il tarixli qərar qəbul etdi. 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının Ali Sovetində yeni tərkibdə keçirilən ilk sessiyada Ulu Öndərimiz Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Dövlət bayrağı kimi qəbul edildi və bununla əlaqədar Azərbaycan Ali soveti qarşısında vəsatət qaldırdı. Beləliklə, milli dirçəlişdən milli tərəqqiyə uzanan yolun başlanğıcı qoyuldu. 1991-ci ilin mart ayında Azərbaycan SSRİ Ali Sovetinin iclasında çıxış edən Ulu Öndər Heydər Əliyev demişdir: "Azərbaycan xalqı birləşməli, öz müqəddəs torpaqlarını göz bəbəyi kimi qorumalıdır. Azərbaycan Respublikası iqtisadi və siyasi müstəqillik yolu ilə getməli, tam istiqlaliyyət uğrunda mübarizə aparmalıdır".

### Xalqa bağışlanan ömür

Azərbaycan xalqının Ulu Öndəri Heydər Əliyev xalqın çağırışı ilə ikinci dəfə hakimiyyətə gəlişindən sonra ölkəni parçalanmaqdan, iqtisadiyyatı tənəzzüldən xilas etməklə böyük Azərbaycanın quruculuğuna start verildi. Böyük Öndərimizin müdrik siyasəti nəticəsində Azərbaycan qısa zaman kəsiyində dünyada baş verən demokratikləşmə prosesinin iştirakçısına çevrildi. Ulu Öndərimiz Heydər Əliyev 1994-cü ilin may ayında atəşkəs haqqında müqavilə imzalamaqla Azərbaycanı siyasi, iqtisadi və hərbi böhrandan qurtardı. Ulu Öndər Heydər Əliyevin müəllifliyi ilə hazırlanan 1994-cü il sentyabrın 20-də imzalanan "Əsrin müqaviləsi" ilə dünyanın neft siyasətini birmənalı şəkildə Xəzər regionuna istiqamətləndirdi. Bu yeni neft strategiyası Xəzərin Azərbaycan sektorunda 15 ölkənin, 33 iri neft şirkətinin iştirakı ilə 22 neft-qaz müqaviləsinin imzalanmasına səbəb oldu. Birmənalı mövqe ondan ibarətdir ki, əfsanə kimi görünən "Əsrin müqaviləsi" adlandırılan ilk neft müqaviləsinin imzalanması Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə işlənib hazırlanmışdır ki, bu da müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasını təşkil edən neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürüdür. Bakı-Tbilisi-Ceyhan kəməri Azərbaycanın yeni neft strategiyasının təməl daşı, iqtisadiyyatımızın ana xəttidir. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin imzalanması ilə Dahi Öndərimiz Heydər Əliyev təkcə Azərbaycanın deyil, həm də Gürcüstan və Türkiyənin də iqtisadi inkişafına zəmin yaratdı. 12 noyabr 1995-ci il tarixində ümumxalq səsverməsi-referendum yolu ilə 5 fəsil 159 maddədən ibarət olan müstəqil Azərbaycan Respublikasının Konstitusiyası qəbul edildi. Sonrakı mərhələdə çoxpartiyalı sistem əsasında parlament seçkilərinin keçirilməsi dövlətçiliyin siyasi-hüquqi əsaslarının möhkəmləndirilməsinə mühüm töhfə verdi. Ulu Öndər Heydər Əliyevin humanist siyasəti sayəsində 1995-ci ilin may ayında əfv və amnistiya təsisatları bərpa edildi. Buna paralel olaraq insan hüquqlarına riayət olunması üzərində parlament nəzarətini təşkil etmək üçün insan hüquqları müvəkkili (Ombudsman) təsisatı yaradıldı. Ulu Öndər Heydər Əliyev 22 fevral 1998-ci il tarixli xüsusi Fərman imzalayaraq Konstitusiyada öz əksini tapmış insan hüquqlarının həyata keçirilməsinin asanlaşdırılmasını hüquqi əsasda təsbit etmiş oldu. Eyni zamanda 1993-cü ildən Ulu Öndər Heydər Əliyevin şəxsi təşəbbüsü ilə icrasına moratorium qoyulmuş ölüm hökmü 10 fevral 1998-ci il tarixli Qanunla tamamilə ləğv olundu. Beləliklə Azərbaycan dünyada azad, demokratik, hüququn aliliyinin ən yüksək formada təmin olunan dövlətə çevrildi.

### İki noyabr, biri azadlıq mübarizəsinin başlanğıcı, digəri ərazi bütövlüyümüzün bərpa olunduğu noyabr

Uğurlara gedən yol davamlı hal aldı. Çünki bu uğurların təməlini Ulu Öndərimiz Heydər Əliyev qoymuşdu. Dahi Öndərimiz Heydər Əliyevin əsasını qoyduğu mütərəqqi işləri 2003-cü ildən sonra Onun ən layiqli siyasi varisi, ölkə Prezidenti İlham Əliyev uğurla davam etdirdi. Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin imza atdığı möhtəşəm qələbələrin kulminasiya nöqtəsi torpaqlarımızın erməni işğalından azad edilməsi oldu. Ulu Öndər Heydər Əliyev siyasətinin layiqli davamçısı Fateh Sərkərdə, Prezident İlham Əliyevin qətiyyətli siyasi iradəsi sayəsində 30 il erməni işğalı altında olan torpaqlarımız azadlığına qovuşdu. 2016-cı ilin aprelində Müzəffər ordumuz öz gücünü ermənilərі bir sıra məntəqələrdə məhv edib, sıradan çıxartmaqla dünyaya nümayiş etdirdi. Aprel döyüşlərində qəhrəman ordumuz Ermənistanın təxribatına cavab olaraq keçirdiyi əks-hücum əməliyyatı nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının ərazilərinin bir qismini, ümumilikdə 2 min hektardan çox torpağı işğalçılardan təmizləyərək böyük bir əraziyə nəzarəti ələ aldı. Bu döyüşlərin ən mühüm yekunu Lələtəpə yüksəkliyinin azad olunması və bununla da Cocuq Mərcanlının təhlükəsizliyinin təmin edilməsi oldu. 2018-ci ilin may ayında isə Naxçıvan Muxtar Respublikasının 11 min hektardan çox ərazisi, o cümlədən Şərur rayonunun Günnüt kəndi düşməndən azad edildi, dövlət sərhədi boyunca əlverişli yüksəkliklər ələ keçirildi, Yerevan–Gorus–Laçın yolu nəzarətə götürüldü .2020-ci ilin sentyabrın 27-dən başlayan 44 günlük savaşda erməni terroru tamamilə məhv edildi. Döyüş zamanı 300-ə qədər kəndi, 5 şəhəri, 4 qəsəbəni, xeyli sayda strateji yüksəklikləri işğaldan azad etməsi noyabrın 10-da Azərbaycanın hərbi-siyasi Qələbəsinin və Ermənistanın kapitulyasiyasının təsdiqi olan Bəyanatın imzalanması ilə nəticələndi. Yenilməz Sərkərdə, Prezident İlham Əliyevin Sərəncamı əsasında Qarabağın ürəyi Şuşanın işğaldan azad edildiyi gün- 8 noyabr Zəfər Günü kimi təsis olundu.

2023-cü il sentyabrın 19-da başlayan və 23 saat 44 dəqiqə çəkən antiterror əməliyyatları ilə Qarabağdakı separatizm tamamilə sıradan çıxarıldı və terrorçular həbs edilərək istintaqa təhvil verildi. Artıq Qarabağımız rahat nəfəs alır, aparılan geniş miqyaslı quruculuq, abadlıq, təmir işlərindən sonra insanlar öz doğma yurd-yuvalarına qayıdırlar.

İşğaldan azad edilən ərazilərimizdə geniş, quruculuq, təmir və bərpa işlərindən sonra inşanlar öz doğma yurd-yuvalarına qayıdırlar. Hər yerdə göz oxşayan mənzərə canlanır. Park və xiyabanların, yaşıllıqların salınması ilə yanaşı meşə zolaqlarının salınması prosesi də böyük vüsətlə aparılır. İşğaldan azad olunan ərazilərdə ekoloji tarazlığın bərpası istiqamətində görülən tədbirlər Topxana meşəsini də əhatə edir. Heydər Əliyev Fondunun layihəsi çərçivəsində "Regional İnkişaf" İctimai Birliyinin könüllüləri tərəfindən Topxana meşəsində də ağacəkmə aksiyası keçirilib. Topxana meşəsi Şuşanın qədim tarixə malik nadir sərvətlərindəndir. Şuşa rayonu ərazisindəki torpaqların 20 faizini əhatə edən bu meşə vaxtilə təbiət möcüzəsini xatırladırdı. Burada yaşı bilinməyən müxtəlif növ ağaclar vardı. Lakin ermənilər işğal dövründə təbii sərvətlərimizi də talayıb, meşələrimizi qırıblar. 1988-ci ilin noyabrında başlanan ekoloji terror nəticəsində 30 ilə yaxın işğal müddətində Topxanada minlərlə qiymətli ağac kəsilərək məhv edilib. Bu gün qədim Şuşanın Topxana meşəsini də əhatə edən ağacəkmə kampaniyası zamanı 3 hektar ərazidə yüzlərlə yeni ağaclar əkilib. Təbii ki, proses bundan sonra da davam etdiriləcək. Hədəfimiz Prezidentimiz İlham Əliyev demişkən Qarabağı cənnətə çevirməkdir.

***İLHAM ƏLİYEV***

# Tramp təxribat maşını olan BBC-ni tarixin arxivinə göndərir

ANALİZ

***Hansı sahədə çalışmağından, fəaliyyət göstərməyindən asılı olmayaraq, yetər ki ədalət hissini itirməyəsən, haqlı, əsaslı mövqedən çıxış edəsən. Görünən ondan ibarətdir ki, çoxları ali hesab olunan dəyərlərə riayət etmirlər. Hər məqamda qərəzli olur, yanlış, mövqedən çıxış edir.***

Bu kimi halları daha çox siyasətçilər, media orqanları arasında görmək olar. Xüsusilə də, müxtəlif qaranlıq dairələrdən maliyyələşən KİV-lər sifarişlərə uyğun fəaliyyət yolu tuturlar ki, bu da cəmiyyətlər tərəfindən narazılıqlarla qarşılanır. Hətta bəzən sifarişlər o dərəcədə anormal xarakter daşıyır ki, media orqanları onları icra etməklə özlərini yandırmış olurlar. Misal olaraq dünya media quruluşları arasında təxribat maşını kimi təqdim olunan BBC-ni göstərmək olar. Bu qondarma media qurumu özəl maraqların sifarişlərinin qulu olduğu üçün əksər hallarda cəmiyyətlər tərəfindən sərt tənqidlərlə qarşılanıblar. Bir qədər əvvəl Nigeriya dövləti BBC-nin ölkə ərazisində yayımını qadağan etmişdi. Eyni analoji addımı Rumıniya, Kolumbiya, Malayziya, indiki fars-molla rejimi, Kanada və digər dövlətlər atıblar. Yəni BBC-nin ölkələrinin ərazisində yayımına qadağa qoyublar.

## BBC vicdansızlıq edib

Diqqətçəkən məqam ondan ibarətdir ki, BBC etdiyi kobud səhvi anlayaraq, D.Trampdan üzr istəyib. Eyni zamanda 2 yüksək vəzifəli rəhbər istefaya göndərilib. Ancaq D.Trampın vəkilləri üzrxahlığı rədd ediblər. D.Tramp "Fox News"a verdiyi müsahibədə deyib. Onun sözlərinə görə, BBC onun çıxışını redaktə etməklə sözlərinin mahiyyətini təhrif edib: "Düşünürəm ki, məcbur olacağam. Niyə də yox? Çünki onlar ictimaiyyəti çaşdırdılar. Və bunu etiraf ediblər. Düşünürəm ki, bunu etmək mənim öhdəliyimdir. Çünki insanların bunu etməsinə icazə verə bilməzsiniz".

ABŞ prezidenti BBC jurnalistlərinin hərəkətlərinə toxunaraq bildirib: "Bu, çox vicdansızlıq idi". Bu təhqiredici ifadə yerində və əsaslı şəkildə deyilmiş ifadədir. Çünki BBC həqiqətən də təxribat maşınıdır və yazdıqları yazılara, paylaşdıqlar videolar yalan üzərində qurulub. BBC-nin yaramazlığı nəhayət onların rüsvay olmaları ilə yanaşı gündəmdən silinmələrinə gətirib çıxarıb. Bu üzdəniraq media qurumu dəfələrlə Azərbaycana qarşı qərəzli mövqe sərgiləyib, yalanlar yazıb, şər və böhtanlar səsləndirib. Xüsusilə də 2020-ci il sentyabrın 27-də başlayan və 44 gün davam edən Vətən Müharibəsi dönəmində bu üzdəniraq media qurumu hər cür iyrənc vasitə və üsullardan istifadə etməklə haqq işimizə kölgə salmağa çalışmışdı. Dəfələrlə BBC erməni maraqlarından çıxış edən reportajlar yayımlamışdı, şərhlər, təhlillər vermişdi. Hətta beynəlxalq hüquq norma və prinsiplərini kobud şəkildə pozaraq Azərbaycanın ayrılmaz hssəsi olan Qarabağla bağlı ikibaşlı fikirlər səsləndirməkdən çəkinməmişdir. 2024 -cü ilin fevralında BBC-ci "Qarabağda humanitar böhran " adlı özünürüsvay edən veriliş yayımlamışdı. Verilişin aparıcısı erməni kökənli Kristian Frezerin yaxın qohumlarından olan Serj Tankiyani və Artak Beqlaryanla üzbəüz oturub, Azərbaycan haqqında şər və böhtan xarakterli müzakirələr qurmuşdu.




Erməni kökənli Kristian Frezerin həyasızcasına hazırda Londonda yaşayan Artak Beqlaryanı Qarabağdakı ermənilərin rəhbərlərindən biri kimi təqdim etmişdi. Bu qanmazı qandırmaq olmur ki, Azərbaycan ərazisində "Dağlıq Qarabağ" adlı coğrafi ərazi yoxdur. Digər tərəfdən bu məxluq anlamır ki, Azərbaycan dövləti Böyük Britaniyanın ərazi bütövlüyünü, Böyük Britaniya isə Azərbaycanın ərazi bütövlüyünü tanıyır və dəstəkləyir. Əgər sizlər erməni lobbisinin ayırdığı maliyyə vəsaitindən ruhlanıb, vətəndaşı olduğun Böyük Britaniyanın dövlət siyasətinə qarşı çıxan fikirlər söyləyirsinizsə, deməli, BBC ciddi qurum hesab edilə bilməz. Haqlı olaraq bu qeyri-ciddi fəaliyyət yolu tutan BBC tarixin arxivinə göndərilməlidir ki, bunu da artıq ABŞ prezidenti D.Tramp həyata keçirməkdədir.

***İLHAM ƏLİYEV***

# Uşaqlar və hüquqlar: zorakılığı necə dayandırmalı?



***2000-ci ildə Ümumdünya Qadınlar Konfransı, beynəlxalq hökumətləri və Qeyri-Hökumət Təşkilatlarını, BMT-nin 19 və 34-cü maddələrinin icrasında daha fəal olmağa təşviq etmək məqsədilə 19 noyabrı Ümumdünya Uşaq Zorakılığının Qarşısının Alınması Günü elan etdi. Qeyd edək ki, bu iki maddədə hər bir uşağın hər cür zorakılığa (o cümlədən cinsi zorakılığa) məruz qalmadan yaşamaq hüququ olduğu və belə halların qarşısının alınmasının vacibliyi qeyd olunur. Bununla əlaqədar olaraq, 20 Noyabr Beynəlxalq Uşaq Hüquqları Günü ilə paralel olaraq hər il 19 noyabr bir çox ölkələrdə Ümumdünya Uşaq Zorakılığının Qarşısının Alınması Günü kimi qeyd olunur.***

## Uşaq istismarı nədir?

Uşaq istismarı uşaqla fiziki və ya psixoloji pis rəftar edilməsidir. Dünyanın bütün ölkələrinin qanunlarında və Cinayət Məcəllələrində uşaqlara qarşı pis rəftarın nə olduğunu, hansı halların cinayət məsuliyyəti yaratdığı müəyyən edilib.

Fiziki zorakılıq uşağa fiziki zərər verdikdə baş verir. Fiziki istismar xəsarətləri uşağı çimdikləmək, dişləmək, vurmaq, təpikləmək, yandırmaq, ağzını örtməklə boğmağa cəhd etmək, şiddətlə silkələmək və ya uşağın bədəninə hər hansı başqa yolla zərər vurmaqdır. Bu xəsarətlərdən bəziləri uşaq oynayarkən təsadüfən baş vermiş ola bilər. Bununla belə, yaraların yeri və zədələnmə tezliyi fiziki zorakılıqdan şübhələnməyə səbəb olmalıdır. Hər il minlərlə uşağın valideynləri və ya yaxın qohumları tərəfindən fiziki zorakılığa məruz qaldığı təxmin edilir. Bu uşaqlar arasında ağır yaralananların, hətta həyatını itirənlərin də olduğu bildirilir. O da məlumdur ki, fiziki zorakılıq nəticəsində yaranan emosional travma fiziki yaralar qədər tez sağalmır. Psixo-emosional zərərin təsiri yeniyetməlik dövründə və ya daha sonralar fiziki zorakılığa məruz qalan bir çox uşağın öz övladlarına qarşı da eyni cür davranması zamanı meydana çıxır.

## Təhqir, hədə, lağ – hamısı zorakılıqdır

Məişət zorakılığının şahidi olmaq belə, uşaqlara və onların gələcəyinə ciddi təsir edir. Bir çox valideynlər uşağın bu zorakılıqdan təsirlənməyəcəyini və ya uşaq zəkasının tezliklə unudacağını düşünür. Ancaq uşaqlar unutmurlar. Anasına zorakılıq edən atasını, özündən böyüyün kişiyə etdiyi zorakılığı yaddaşlarının bir küncündə mühavizə edirlər. Məlumdur ki, ailədaxili zorakılığa şahid olan uşaqlarda emosional və davranış pozğunluqları digər uşaqlara nisbətən daha yüksəkdir. Bu zorakılıq uşaqlara onların yaşından, cinsindən asılı olaraq fərqli təsir göstərir.

Zorakılığa məruz qalan uşağın ailəsində münaqişə, uğursuz evlilik və mənəvi zorakılığın olması, ögey ana və ya ata faktoru, ailə daxilində qərar qəbulu zamanı uşağın fikrinin soruşulmaması, ailənin yaşadığı maddi problemlərdən qaynaqlanan zorakılıq və fiziki cəzalar onu gələcəkdə zorakılıq tətbiq edən biri olmağa sürükləyir. Uşaqlara edilən bir zorakılıq növü də psixolojidir. Uşağı aramsız danlamaq, təhqir etmək, hədələmək, günahlandırmaq, uşaqdan incimək, uşaq yoxmuş kimi davranmaq, uşağı ələ salmaq psixo-emosional zorakılıqdır.

## İnsanlığın sonu – cinsi istismar

Uşaqların cinsi istismarının cəmiyyət tərəfindən qəbul edilməsi çətin olduğu üçün onu müəyyən etmək və aşkara çıxarmaq da çox vaxt çətin olur, buna görə də təəssüf ki, çox vaxt bu hal gizli qalır. Uşaqlara qarşı cinsi istismar əvvəllər tamamilə yad insanlar tərəfindən törədilirdi. Lakin faciəvi haldır ki, indi cinsi istismara məruz qalanlar arasında ana, ata, ögey ana, ögey ata, qardaş, qohum, müəllim, qonşusunun və s yaxın adamın istismarına məruz qalanlar çoxluq təşkil edir. Cinsi zorakılığa daha çox boşanma, zorakılıq, alkoqol və narkotik maddə istifadəsi olan ailələrdə rast gəlinir.

Heç bir uşaq psixoloji cəhətdən cinsi zorakılıqla mübarizə aparmağa hazır ola bilməz. Hətta iki-üç yaşlı uşaq belə bu hadisənin nə olduğunu anlamasa belə, sonrakı həyatında bu hadisədən mənfi təsirlənəcək. Beş və daha yuxarı yaşda olan uşaqların zorakılıq edəni tanıdıqları halda çaşqınlıq yaşamaları normaldır. Onlar cinsi qısnama edən şəxsi tanıdıqları halda ona sevgi bəsləldikləri üçün təcavüzü heç kimə demirlər. Bəzən də qorxu hissi ilə bunu gizlədirlər. Uşaqlıq, cinsi inkişafın və biliklərin hələ tamamlanmadığı bir dövrdür. Bu dövrdə o, hər hansı cinsi zorakılıq hərəkətini ya anlamayacaq, ya da gizlədilməsi vacib bir vəziyyət kimi xarakterizə edəcək.

## Uşaqlar arasında mənəvi və fiziki zorakılıq

Uşaqlar və ya yeniyetmələr arasında mənəvi-emosional və fiziki zorakılıq məktəblərdə rast gəlinə bilən bir hadisədir. Bu bulling adlandırılır, şagirdin bir və ya bir neçə şagird tərəfindən təkrar və davamlı olaraq mənfi davranışa məruz qalması kimi müəyyən edilir. Uşaq və yeniyetmələr arasında kənarlaşdırma, lağ etmə, təcrid etmə, başqalarına aqressiv davranma, problemləri fiziki güclə həll etməyə çalışmaq fiziki və emosional zorakılığa nümunədir. Bu cür fiziki və psixoloji aqressiv davranışlara məruz qalan uşaqlar zaman keçdikcə özünü gücsüz hiss etməyə başlayır, müti olur.

Zorakılığa məruz qalan uşaq hədələndiyi, qorxudulduğu və ya utandığı üçün başına gələnləri valideynlərinə deməyə bilər. Ancaq valideynlər bəzi əlamətlərdən övladının zorakılığa məruz qaldığını anlaya bilər. Uşağın yırtılmış paltarı, bədənində kəsiklər, yaralar, qançırlar, əşyalarını itirməsi, yaxın dostlarından uzaqlaşması, məktəbə getmək istəməməsi, yuxu və yemək pozğunluqları, dərslərində geriləmə, ünsiyyətdən qaçması, sosial münasibətlərinin zəifləməsi, yatağını islatması, aqressiv film və mahnılara meyilliliyi onun başına gələnlərdən xəbər verir.

Uşaq zorakılığının qarşısının alınması mərhələsinə gəlincə, deyə bilərik ki, bunun ən sınanmış yolu cəmiyyətin təhsil səviyyəsi və cəzalandırma sisteminin möhkəmlidir. Təhsil, gələcəkdə uşaqlarına qarşı zorakılıq və laqeyd münasibət göstərəcək ailələri bəri başdan dəyişdirmək deməkdir. İctimai maarifləndirmə tədbirləri, ailəyə dəstək proqramları, sosial çarxlar və posterlər bu mübarizə üsullarına daxildir. Cəza sistemi də ədalətin göstəricisidir, bu cinayətə görə həbs edilən şəxs ağırlaşdırılmış cəza ilə cəzalandırılmalıdır ki, zorakılığa meyilliyi olan şəxslər üçün dərs olsun. Uşaqlar böyüklərin qayğısına və müdafiəsinə ehtiyac duyurlar. Onların edəcəyi heç bir hərəkət döyülməyə və ya zorakılığa məruz qalmaqlarına haqq qazandırmaz. Uşaqlar zorakılıqdan dərs almırlar, əksinə, mütəmadi zorakılıq onların həyat tərzinə çevrilə bilər. Unutmayın, uşaqlar valideynlərini təqlid edərək doğru ilə yanlışı ayırd edirlər. Onlar gələcəyin qurucularıdır, o gələcəyin sağlam təməllər üzərində qurulması üçün isə sağlam ruhlu uşaqlara ehtiyac var.

***Lalə Mehralı***



# “Tramp yolu” qələbəyə aparacaqmı?

ÇƏTİN SUAL

***Ermənistanda "Tramp yolu"nun tikintisinə 2026-cı ilin ikinci yarısında başlana bilər. Müxalifət Paşinyana mane olmağa çalışır, lakin o, bu layihəni özünün "Mülki müqavilə" seçki proqramının hərəkətverici qüvvəsinə çevirmək niyyətindədir. Bu barədə danışan Nikol Paşinyan bəyan edib ki, “Tramp yolu”nun (TRİPP) həyata keçirilməsi üçün müfəssəl plan 2025-ci ilin sonuna kimi hazırlanmalıdır. Podratçılarla danışıqlar oktyabrda başlayıb. Layihə işçi qrupunun və infrastrukturun inkişafı konsorsiumunun formalaşdırılması mərhələsinə qədəm qoyub. İş planının 2026-cı ilin birinci yarısında bütün maraqlı tərəflər tərəfindən razılaşdırılması, ikinci yarısında isə tikintiyə başlanması gözlənilir. ABŞ prezidenti Donald Trampın komandası, o cümlədən Yaxın Şərqdəki digər layihələrlə həddən artıq yüklənib, ona görə də verilən müddətlərin yerinə yetirilməsini təmin etmək üçün hər şey edilməlidir.***

Xatırladaq ki, “Tramp yolları” layihəsi Ermənistanın ABŞ-a Bakıdan Naxçıvana marşrutun çəkiləcəyi 99 illik torpaq sahəsini icarəyə verməsini nəzərdə tutur. Azərbaycanda bu marşrutu “Zəngəzur dəhlizi”, Ermənistan isə “Meğri yolu” adlandırır. Paşinyan bundan özünün “Sülh yollarının kəsişməsi” təşəbbüsünü həyata keçirmək üçün istifadə edəcəyinə ümid edir, Azərbaycan Prezidenti İlham Əliyev Naxçıvana birbaşa çıxış istəyir. ABŞ hakimiyyət orqanları regionda təhlükəsizliyin təmin edilməsinə və Bakı ilə İrəvan arasında əməkdaşlığın qurulmasına kömək edəcək vasitəçilər və sülhməramlılar kimi çıxış etdiklərini iddia edirlər.

Paşinyan bildirib ki, iş cədvəl üzrə gedir. Əminliklə demək olar ki, dəmir yolu sovet dövründən qalan dəmir yolunun yerində tikiləcək, çünki bunu başqa bir marşrutla etmək sadəcə olaraq mümkün deyil. Qaz kəməri və elektrik şəbəkələri daha çox şimala doğru çəkiləcək, amma hələ dəqiq deyə bilmərəm, nə də dəqiq deyə bilmərəm ki, onlar bütünlüklə Zəngəzur bölgəsində, yoxsa qismən Dərələyəzdə tikiləcək. Bu, bir çox amillərdən, o cümlədən regiondan və regiondan asılıdır. Biz Şimal-Cənub magistralını tikirik və çox güman ki, Şərq-Qərb magistralı Şimal-Cənub magistralı ilə birləşdiriləcək.

Eyni zamanda, hökumət başçısı vurğulayıb ki, “Tramp yolu” avqustun 8-də Vaşinqtonda razılaşdırılan Azərbaycan üçün məqbul şərtlər əsasında fəaliyyət göstərəcək. "Biz Bakı üçün məqbul şərtlərlə bağlı sənəd imzaladıq. Və bu şərtlərin nə olduğu Ermənistan və Azərbaycan liderlərinin imzaladığı sənəddə öz əksini tapıb: ərazi bütövlüyü, suverenlik, legitimlik, qarşılıqlılıq, sərhədlərin toxunulmazlığı”, - Paşinyan bildirib.

Ermənistan baş nazirinin müavini və Ermənistan Delimitasiyası Komissiyasının rəhbəri Mher Qriqoryan “Tramp yolu”nun tikintisini sürətləndirmək üçün hər iki tərəfin Zəngəzur bölgəsində sərhədin demarkasiyasını sürətləndirə biləcəyini istisna etməyib. “Hətta layihələndirmə işlərinə başlamaq üçün bizə işçi baza lazımdır... Ola bilsin ki, proses zamanı TRIPP infrastrukturunun inkişafını asanlaşdırmaq üçün planlaşdırılmamış delimitasiya bölmələri olsun”, - Qriqoryan bildirib.

Qeyd edək ki, bu əməkdaşlıq çərçivəsində Bakı İrəvan üzərindəki iqtisadi blokadanı ən azı qismən aradan qaldırıb. Konkret olaraq Ermənistan Azərbaycan üzərindən Qazaxıstan və Rusiyadan taxıl qəbul etməyə başlayıb. Hazırda bu, bir neçə min ton təşkil edir, lakin Astana tədarükü ayda 20 min tona çatdırmağa hazırdır. Moskva isə öz növbəsində indiyədək İrəvanı xaricdən aldığı taxılın demək olar ki, hamısını (təxminən 450-500 min ton) təmin etsə də, onu Gürcüstandan keçirib. Bu fonda Paşinyan bəyan edib ki, Ermənistan Rusiya buğdasından heç vaxt imtina etməyəcək, lakin onlar maliyyə baxımından daha cəlbedici olsa, digər təklifləri nəzərdən keçirməyə hazırdır.

"Paşinyan "Tramp Yolu"nu özünün şəxsi layihəsinə çevirib və 2026-cı ilin iyununda deputatlığa namizədliyini irəli sürmək niyyətindədir. Bununla belə, qeyd etmək lazımdır ki, o, Ermənistanda belə bir şeyi həyata keçirməyə qadir olan yeganə siyasətçidir. Müxalifət qalib gəlsə, heç bir tikinti aparılmayacaq. TRIP-nin istifadəyə verilməsinə gəlincə, hələlik hər şeyi müzakirə etmək tezdir", - deyə Mikaelyan bildirib.

Eyni zamanda ekspert qeyd edib ki, Ermənistan ərazisinin bir hissəsinin konkret olaraq kimin və hansı şərtlərlə 99 il müddətinə icarəyə veriləcəyi, marşrut boyu təhlükəsizliyin kim tərəfindən təmin ediləcəyi və s məlum deyil. Amma Paşinyan artıq mürəkkəb məsələləri bir imza və ya şifahi razılaşma ilə həll etmək təcrübəsinə malikdir.

Bununla belə, TRIPP heç vaxt həyata keçirilə bilməz. Erməni müxalifət mediası iddia edir ki, ABŞ prezidentinin oğlu kiçik Donald Tramp atasının adını daşıyan layihə ilə bağlı məsələləri müzakirə etmək üçün İrəvana səfər etməyi planlaşdırırdı, lakin Paşinyanın əleyhdarları guya səfəri poza biliblər. Konkret olaraq, rüsvay olmuş oliqarx Samvel Karapetyanın qardaşı oğlu Narek Taker Karlsona müsahibə verib, o, hökumətin Erməni Apostol Kilsəsinə hücumlarından danışıb, ondan sonra respublikaçının fikrindən daşındığı iddia edilib.

Paşinyan iddia edir ki, onun hökuməti kiçik Trampın gözlənilən səfəri, nəinki onun ləğvi barədə heç nə bilmir. "Biz bunu heç vaxt açıqlamamışıq. Bunu kim elan edibsə, izah etsin", - baş nazir bildirib. Sentyabrın 11-də ABŞ Dövlət Departamentinin Avropa və Avrasiya məsələləri üzrə bürosunun direktoru Brendan Hanrahan Qriqoryanla görüşü zamanı İrəvanın TRİPP-in həyata keçirilməsi üçün 145 milyon dollar alacağını bəyan edib. Onun sözlərinə görə, bu, layihənin maliyyələşdirilməsinin yalnız birinci tranşıdır.

## Şimal-Cənub layihəsi formalaşma mərhələsində

“Məmnuniyyətlə bildirmək istəyirəm ki, “Dünyanın kəsişməsi” layihəsi icra mərhələsinə qədəm qoyub”. Ermənistanın baş naziri Nikol Paşinyan noyabrın 14-də İrəvanda keçirilən “Dünyanın kəsişməsi: Regional kommunikasiyaların inkişafı” konfransında çıxışı zamanı belə deyib: “Əlbəttə, mən onu da başa düşürəm ki, xüsusi diqqət mərkəzində olan “Trump Route” layihəsinin daha geniş konteksti daha vacibdir. Bu il biz Gümrüdən İrəvana qədər olan hissəni açacağıq ki, bu da artıq praktiki olaraq hazırdır; yalnız abadlıq işləri qalıb. Aqarak-Kacaran hissəsi də çox sürətlə tikilir. Hazırda Sisian-Kacaran hissəsinin tikintisi ilə bağlı müzakirələr aparılır və artıq yekun mərhələsinə qədəm qoyan Bərgüşat tuneli layihəsi də diqqət mərkəzindədir. Bu kontekstdə mən daha bir tarixi hadisəni son dərəcə vacib hesab edirəm: Ermənistan müstəqillik əldə etdikdən sonra ilk dəfə olaraq yüklər Ermənistana Azərbaycan dəmir yolları vasitəsilə – Rusiya və Qazaxıstandan daxil olub. Təbii ki, hələlik bu, Azərbaycan-Gürcüstan-Ermənistan marşrutudur. Sovet dövründə bizim Tavuş və Sünik (Zəngəzur) rayonları vasitəsilə Azərbaycanla birbaşa dəmir yolu əlaqəmiz olub. Mən onu da diqqətinizə çatdırmaq istərdim ki, Ermənistan Türkiyədən Marqara və Kornidzordan Azərbaycana və geriyə yük maşınlarının tranzitini təmin etməyə hazır olduğunu bildirib”, - Paşinyan bildirib.

## Qarabağın müstəqillik məsələsi uydurmadır

Ermənistanın baş naziri Nikol Paşinyan noyabrın 13-də parlamentdə 2026-cı ilin dövlət büdcəsi layihəsinin müzakirəsi zamanı yekun çıxışında deyib ki, siyasi liderlik heç kimin üzərinə götürməyəcəyi məsuliyyəti öz üzərinə götürməkdir. Tezliklə danışıqlar sənədləri dərc olunacaq və görəcəksiniz ki, Qarabağın müstəqillik məsələsi saxtakarlıqdır. “2018-ci ildə hakimiyyətdə olmasaydıq, kim bu yolu tutacaqdı? Başqası qalsaydı, Ermənistan Respublikası bu gün mövcud olmazdı. Nə qədər təvazökar səslənsə də, mən bunu deməliyəm: bəli, bu, missiyadır və biz onu yerinə yetiririk. İndi mən tutduğumuz yola həqiqətən, intuitiv olaraq əminəm”, - Paşinyan bildirib.

Onun sözlərinə görə, biz dövlətin mənasını yenicə öyrənməyə başlayırıq. "Onlar dövlətin nə olduğunu bilmirlər; onlar forpostun nə olduğunu bilirlər. Biz də zastavada idik, biz də cibdəydik, amma qərara gəldik ki, elə həmin cibdən çıxıb müstəqil dövlət olmalıyıq. Biz Ermənistan Respublikasının suveren dövlət kimi əbədiliyini təmin edirik”, - baş nazir bildirib.

## Ermənistan öz tarixinin ən yaxşı dövrünü yaşayır

“Bütövlükdə hesab edirəm ki, biz bugünkü Ermənistanı müdafiə etməyi bacarmalıyıq, çünki bugünkü Ermənistan əvvəlkindən qat-qat güclü, özünə güvənən, daha möhkəm dövlətdir”. Bunu baş nazir Nikol Paşinyan Milli Assambleyada 2026-cı il büdcə layihəsinin müzakirəsində yekun nitqində deyib. “Bugünkü Ermənistan taleyi öz əlində və xalqının əlində olan bir dövlətdir. Əminəm ki, bu vəziyyət nəinki saxlanılacaq, həm də inkişaf edəcək, çünki bu, tarixi dönüş nöqtəsidir. İndi baş verənlər tarixi dönüş nöqtəsidir. Ermənistanın öz tarixində dövlət olmaq, çiçəklənmək, xoşbəxt olmaq, müstəqil olmaq, təhlükəsiz olmaq şansı heç vaxt olmayıb. Bu, son beş ildə deyil, təxminən son 500 ildədir. Bəli, etiraf etməliyik ki, biz bu problemi çox ağır, amansız sınaqlardan keçərək həll etdik. Biz bu müstəqilliyi şəhidlərimizin canı bahasına əldə etdik. Bugünkü canlı Ermənistan isə 500 illik tarixinin ən yaxşı dövrünü yaşayır. Və bunu görmək çox vacibdir. Ermənistan Respublikası və Ermənistan xalqı bizim yeni baxışımıza və yeni biliklərimizə möhkəm əməl etməlidir. Şəhidlərə rəhmət, yaşasın Ermənistan Respublikası. Təşəkkür edirəm”, - o, sözlərini tamamlayıb.

Bəli, siyasi analitiklər və ictimai dairələr “Ermənistanın müstəqil qərar verməkdə çətinlik çəkdiyi” və “xarici güclərdən asılı şəkildə fəaliyyət göstərdiyi” fikrini önə çəkirlər. Bu mövqenin formalaşmasında bir neçə əsas amil göstərilir. Ermənistan uzun illərdir təhlükəsizlik təminatını böyük ölçüdə xarici güclərə bağlamış bir dövlətdir. Xüsusilə, hərbi sisteminin böyük hissəsinin başqa bir dövlətin resurs və təsirindən asılı olması ölkənin müstəqil müdafiə siyasəti yürütməsini məhdudlaşdırdığı iddiasını gücləndirir. Bu yanaşmaya görə, təhlükəsizlik sahəsində kənardan gələn diktələr Ermənistanın strateji qərarvermə prosesinə ciddi təsir göstərir. Ermənistan coğrafi cəhətdən mürəkkəb bölgədə yerləşdiyindən, müxtəlif güclər ölkə üzərində siyasi təsir qurmağa çalışır. Analitiklər bildirirlər ki, Ermənistan bir çox hallarda regional və qlobal aktorların maraqlarına uyğun addımlar atır və bu, onun tam suveren qərar vermə imkanlarını daraldır. Xarici təzyiqlər nəticəsində Ermənistanın daxili və xarici siyasətdə müstəqil xətt aparması çətinləşir.

İqtisadi cəhətdən Ermənistan məhdud resurslara malikdir və idxaldan, xarici maliyyə yardımlarından yüksək dərəcədə asılıdır. Bu vəziyyət ölkənin iqtisadi qərarlarında tam sərbəst hərəkət etməsinə mane olan əsas amillərdən biri kimi göstərilir. Xarici kapitalın dominant mövqeyi ölkənin iqtisadi suverenliyi barədə suallar doğurur. Ermənistan daxilində siyasi dairələrin bir hissəsinin xarici aktorlarla sıx bağlı olması barədə fikirlər də mövcuddur. Bu mövqe tərəfdarlarına görə, ölkə rəhbərliyinin müxtəlif dövrlərdə qəbul etdiyi qərarlar daxili maraqlardan çox, xarici mərkəzlərin prioritetlərinə uyğunluq göstərib.

**V.VƏLİYEV**



**Sultanəli Qurbanov**
*Səbail rayonu, YAP "Ü.Hacıbəyov-68" ƏPT sədri, ADPU-nun dosenti*

# Yeni Azərbaycan Partiyası xalqın partiyasıdır

İctimai-siyasi və tarixi zərurətdən yaranan Yeni Azərbacyan Partiyası ötən 33 ildə dövlət müstəqilliyimizin möhkəmləndirilməsində inkişafa, sabitliyə, tərəqqiyə xidmət edən milli məqsədlərin reallaşdırılmasında böyük xidmətlər göstərib. Ümumxalq partiyasına çevrilən Yeni Azərbacyan Partiyası öz sıralarında cəmiyyətin bütün təbəqələrindən olan insanları birləşdirən avangard siyasi qüvvədir. Mövcud olan ayrı-ayrı siyasi partiyalar ölkənin milli maraqlarını, təhlükəsizliyini qorumaq əvəzinə hakimiyyət uğrunda mübarizə aparırdılar. Buna görə də, ölkə daxilində hərc-mərclik, xaos, ciddi böhran yaranmışdır. Ölkəmizi düşdüyü bu bəladan, məhv olmaq təhlükəsindən xilas etmək üçün Azərbaycan xalqının görkəmli ziyalıları, tanınmış insanlar Ümumilli Lider Heydər Əliyevə müraciət etdilər. Zəngin dövlətçilik təcrübəsinə malik olan, öz xalqına, dövlətinə dərindən bağlı olan Ümummilli Liderimiz Heydər Əliyev belə partiyanın yaradılmasına ehtiyac olduğunu görürdü. Ona görə də, tanınmış 91 nəfər ziyalı Ümummilli Liderimizə 1992-ci il 16 oktyabr tarixində müraciət etdi: "Sizdən xahiş edirik ki, yaranan Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə razılıq verəsiniz. Azərbaycanın bütün bölgələrindən bizim təşkilat komitəsinə daxil olan minlərlə şifahi və yazılı vətəndaş təkliflərinə əsaslanaraq belə bir qənaətə gəlirik ki, yaratmaq istədiyimiz Yeni Azərbaycan Partiyasına bu gün rəhbərlik etməyə qadir olan yeganə mütləq Lider Siz ola bilərsiniz. Yalnız bu halda yaranmaqda olan partiya öz qarşısına qoyduğu məqsədə çatar. Respublikanın bütün zümrələrdən olan xalq kütləsini öz ətrafında birləşdirərək Azərbaycanın siyasi, iqtisadi həyatında mövcud olan boşluğu doldurar, dövlət quruculuğu işlərində öz layiqli töhfəsini verə bilər. Son söz olaraq bildirilirdi ki, Azərbaycan Sizin sözünüzü gözləyir". Ulu Öndər Heydər Əliyev cavab məktubunda Yeni Azərbaycan Partiyasının yaradılmasına və ona rəhbərlik etməyə razılıq verdi. Bu barədə də Ulu Öndər Heydər Əliyev Respublika Sarayında keçirilən Yeni Azərbaycan Partiyasının yaradılmasının 5-ci il dönümü münasibətilə keçirilən təntənəli yığıncaqdakı nitqində belə demişdir: "91-lər"in mənə müraciətindən əvvəl ondan bir xeyli vaxt Sirus Təbrizli böyük bir məqalə dərc etmişdir ki, biz Heydər Əliyevi Azərbaycana, Bakıya özümüz dəvət etməliyik. Mən o məqaləni də oxudum, onu çox hörmətlə qarşıladım, qəbul etdim. Ancaq o məqalə də mənim fikrimi dəyişmədi. Nəhayət, Azərbaycanda vəziyyətin getgedə ağırlaşdığını, çətinləşdiyini görərkən və bu partiyanın yaranması ilə əlaqədar mənə müraciət edən ziyalıların, respublikanın tanınmış adamlarının – ölkəmiz, xalqımız, torpğımız üçün ürəyi həqiqətən yanan adamların iztirabını duyarkən, onların xalqımız, ölkəmiz üçün bir iş görmək arzusunu hiss edərkən mən tədricən belə bir partiyanın yaranmasına kömək etməyə razılığımı verdim. Sonra mənə "91-lər"in müraciəti gəldi və mənim müraciətə cavabım oldu".

Beləliklə, AXC-Müsavat cütlüyünün yaratdıqları təzyiqlərə baxmayaraq, 1992-ci il noyabrın 21-də Naxçıvan Muxtar respublikasında 550 nəfərin iştirakı ilə Yeni Azərbaycan Partiyası təsis olundu. Çoxlu sayda təzyiqlərə baxmayaraq, qısa müddətdə insanlar Yeni Azərbaycan Pariyasına üzv olmağa başladılar. Ulu Öndər demişdir: "Bu partiyaya hər kəs öz könülü, vicdanı, qəlbi ilə gəlməlidir. Hamı bilsin ki, bu partiya saflıq, saf mənəviyyat üzrəində qurulmuş bir partiyadır. Bu partiya Azərbaycanın tarixi köklərinə, milli mənəvi dəyərlərinə söykənən, ümumbəşəri dəyərlərdən bəhrələnən ümumxalq partiyasıdır. Azərbaycanın bütün vətəndaşlarının partiyasıdır. Yeni




Azərbaycan Partiyası daim yaşayacaq və Azərbaycan vətəndaşlarının istək və arzularını əks etdirən böyük bir təşkilat olacaqdır"

Müxalifət partiyası kimi yaranan Yeni Azərbaycan Partiyası iqtidara gəldikdən sonra digər siyasi partiyalara qanunlar əsasında fəaliyyət göstərməyə əlverişli şərait yaratdı.

Ömrünü öz xalqına və dövlətinə xidmətə həsr edən Ulu Öndər Heydər Əliyevin Yeni Azərbaycan Partiyasına rəhbərlik etməsi partiyamıza olan inam və dəstəyi artırdı. Qısa müddətdə ümumxalq partiyasına çevrilərək müstəqil Azərbaycanın inkişafını təmin etdi.

Ulu Öndər vaxtilə demişdir: "Azərbaycan dünyaya Günəş kimi doğacaq!"

Həqiqətətn də bu gün ölkəmiz Prezident İlham Əliyevin rəhbərliyi ilə dünyada bir Günəş kimi parlayır.

Ümummilli Lider Heydər Əliyevin siyasi kursunun uğurlu davamçısı Prezident İlham Əliyevin sədrliyi ilə Yeni Azərbaycan Partiyası öz fəaliyyətini müvəffəqiyyətlə davam etdirir. İlham Əliyev Yeni Azərbaycan Partiyasının VI qurultayında demişdir:

"...Yeni Azərbaycan Partiyası ölkəmizdə aparıcı siyasi qüvvədir. Partiyamızın ideyaları, siyasəti xalq tərəfindən dəstəklənir. Partiyamızın sıraları genişlənir və çox sevindirici hal ondan ibarətdir ki, gənclər partiyaya üz tuturlar: Gənclərin axını partiyamızın gələcək inkişafı üçün də əsas şərtlərdən biridir"

Möhtərəm Prezidentimiz İlham Əliyevin sədrliyi ilə Yeni Azərbaycan Partiyası tamamilə yeni keyfiyyət mərhələsində inkişafını davam etdirir. Üzvlərinin əksəriyyəti gənclərdən ibarət olan Yeni Azərbaycan Partiyası nəinki Cənubi Qafqazın, eləcə də yaxın coğrafiyanın ən güclü, mütəşəkkil, yüksək intellektual potensiala malik olan siyasi qüvvədir. Yeni Azərbaycan Partiyası nəinki qələbələr qazanan, eyni zamanda bu qələbələri uzun müddət qoruyub saxlamağı bacaran nadir partiyalardandır. Bu qələbələrin əsasında isə hər şeydən öncə azərbaycançılıq, vətənsevərlik, varislik, konstruktiv əməkdaşlıq, vətəndaş həmrəyliyi və sosial ədalət dayanır. Yeni Azərbaycan Partiyası liderimiz İlham Əliyevin rəhbərliyi ilə bundan sonra da möhtəşəm zəfərlərə imza atmağa davam edəcəkdir. Bu gün Yeni Azərbaycan Partiyası Azərbaycanın aparıcı siyasi qüvvəsidir.

Ölkəmizdə sabitliyin və təhlükəsizliyin təmin olunmasına, inkişafına, torpaqlarımızın azad olunaraq yeni infrastrukturların yaradılmasında, Qarabağımızın inkişafında Yeni Azərbacyan Partiyasının misilsiz xidmətləri, böyük rolu var. Belə ki, Ulu Öndər Heydər Əliyev xaos və anarxiyadan, dövlətçiliyin itirilməsi təhlükəsindən xilas edib tərəqqi yoluna çıxartdığı Azərbaycan hazırda Yeni Azərbaycan Partiyasının sədri Prezident İlham Əliyevin rəhbərliyi ilə sürətlə inkişaf edən, yeniləşən, müasirləşən ölkəyə çevrilib. Ali Baş Komandanımız, Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan "Dəmir Yumruq" əməliyyatı nəticəsində 33 il işğal altında olan torpaqlarımız azadlığa qovuşdu, ərazi bütövlüyümüz bərpa olundu. Qarşıda bizi daha böyük hədəflər gözləyir. Bu hədəflərə çatmaq üçün Prezidentimiz İlham Əliyevin ətrafında sıx birləşərək Heydər Əliyev ideyalarının gələcək nəsillərə ötürməkdir. Heydər Əliyev siyasəti uğurlu və xoşbəxt gələcəyimizin əsas təminatçısıdır.

Ulu Öndər Heydər Əliyev ideyalarını əsas götürərək Yeni Azərbacyan Partiyasının sədri cənab İlham Əliyev yürütdüyü müstəqil siyasəti ilə ölkəmizi daha da işıqlı gələcəyə aparır.

# 44 günlük Vətən müharibəsindən bu yana 412 nəfər mina qurbanı olub - XİN

44 günlük Vətən müharibəsindən bu yana 412 nəfər mina qurbanı olub. SİA-nın məlumatına görə, bu barədə Ermənistanla sərhəddə baş verən mina hadisəsi ilə bağlı Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) "X"də etdiyi paylaşımda bildirilib.

Qeyd olunub ki, minalar hələ də Azərbaycanda insan həyatına son qoymaqda davam edir: "Bu gün Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin əməkdaşı Ermənistan sərhədində minanın partlaması nəticəsində ağır şəkildə yaralanıb. Təkcə 2020-ci ilin 44 günlük Vətən müharibəsindən bu yana 412 nəfər mina qurbanı olub. Mülki şəxsləri hədəf alan, bərpa işlərini ləngidən və təhlükəsiz qayıdışı əngəlləyən bu humanitar faciə beynəlxalq humanitar hüququn ciddi şəkildə pozulmasıdır. Bu fakt həmçinin genişmiqyaslı mina təmizləmə əməliyyatlarının sürətləndirilməsi üçün təcili beynəlxalq dəstəyin vacibliyini bir daha göstərir".



# İnsanları 35 yaşdan sonra niyə işə götürmək istəmirlər?



SOSİOLOQ AÇIQLADI

***"İşəgötürənlərin verdikləri iş elanlarında 18-35 yaş arası yaş məhdudiyyəti qoyulması doğru deyil". Bu sözləri SİA-ya açıqlamasında sosioloq Üzeyir Şəfiyev bildirib.***

Onun sözlərinə görə, bütün hallarda bu ayrımçı yanaşmadır və doğru deyil: "İşçinin 35-dən çox yaşı olsada, müasir texnologiyalardan məlumatı var və xarici dil bilir. Belə olan halda işəgötürənin işçini işə götürməməsi üçün təbiiki heç bir səbəbi yoxdur. İşçinin təcrübəsi varsa, yaşı 35-dən çox olsa da ona şans vermək lazımdır. İşəgötürənlər yaxşı olardı ki, elan etdikləri vakansiyalarda konkret tələblərini göstərsinlər. Bəzən çox tercübəli işçini 35-dən çox yaşı olduğu üçün işə götürmürlər. Təbii ki, bu düzgün deyil. Bu qərar həm də Beynəlxalq Əmək Təşkilatınında kriteriyalarına uyğun deyil.



İşəgötürənlər tərəfindən elan olunan vakansiyalarda yaş məhdudiyyəti vətəndaşın həm psixoloji olaraq özlərini yaşlı hesab etmələrinə səbəb olur. Bu insanlar özlərini öz funksiyanallıqlarını itirmiş və heç kimə lazım olmayan şəxs kimi hesab etmələrinə səbəb olur. Nəticədə bu insanlar sürətli qocalma sindromuna və depressiyaya da düşə bilərlər. Bu yolverilməzdir. Bütün insanlara bərabər şərait və imkanlar yaradılmalıdır. Azərbaycan 2016-cı ildə dayanıqlı inkişaf məqsədləri planına qoşulub. Bu planın əsas məqsədi heç kəsi kənarda qoymamaqdır. Azərbaycan bu öhdəliyi götürübsə, müəssisələrdə bu prinsipə hörmətlə yanaşmalıdır. Yaş məhdudiyyəti məsələsinə mən tənqidi yanaşıram".

*İlkin Məmmədkərimov*

# Cənubi Qafqaz nəqliyyat arteriyaları Şimal-Cənub Dəhlizinin əsas komponentinə çevrilir




***Ermənistan və Azərbaycan arasında dəmir yollarının və magistral yollarının bu yaxınlarda açılacağının elan edilməsi, Cənubi Qafqaz ölkələri, Rusiya və İranı əhatə edən beynəlxalq yük tranziti üçün yeni marşrut imkanları yaradır. Buna görə də, regiondaxili və beynəlxalq yük daşımalarının daha da inkişaf etdirilməsi nəzərə alınmaqla, digər mövcud magistral yolların bərpası və yenilərinin yaradılması nəzərdən keçirilir. Bu da öz növbəsində, bütün beynəlxalq nəqliyyat dəhlizləri boyunca artan tıxac səbəbindən Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin bütün mövcud və yeni marşrutlarını birləşdirərək Rusiya, Cənubi Qafqaz, İran və Türkiyə arasında genişləndirilmiş tranzit sahəsi yaradacaq.***

Sentyabrın ortalarında Ermənistan və Türkiyənin xüsusi nümayəndələri Ruben Rubinyan və Serdar Kılıç Yerevanda keçirilən görüşdə Gümrü (Ermənistan) və Qars (Türkiyə) arasında təxminən 200 km uzunluğunda dəmir yolu xəttinin istifadəyə verilməsi üçün texniki tədqiqatlara başlamaq barədə razılığa gəldilər. Xatırladaq ki, bu xətt 1993-cü ildən bəri Ankaranın qərarı ilə fəaliyyət göstərmir, lakin 2010-cu illərin ortalarından etibarən tərəflər onun bərpası və qismən modernləşdirilməsi ilə bağlı məsləhətləşmələr aparırlar. Azərbaycan və Ermənistan arasında tranzitin açılması ilə, o cümlədən İcevan (şimal-şərqi Ermənistan) ilə Qazax (şimal-qərbi Azərbaycan) arasında təxminən 50 km uzunluğunda ən qısa birləşdirici hissənin açılması ilə Gümrü-Qars xətti Rusiya-Azərbaycan-Ermənistan-Türkiyə-Balkanlar/Şərqi Aralıq dənizi kimi ən qısa dəmir yolu dəhlizinin bir hissəsinə çevriləcək.




Bundan əlavə, Qars Ticarət və Sənaye Palatasının rəhbəri Ərtoğrul Əlibəyoğlunun sözlərinə görə, bu arteriya ilə bağlı məsləhətləşmələr başlayandan bəri getdikcə daha çox investor Qars Ticarət və Sənaye Palatasına zəng edərək avtomobil yolunun bərpası layihəsinə investisiya qoymaq istəklərini bildirməyə başlayıb.

**(Foto-1: Əsas Transqafqaz dəmiryolu tranzit arteriyaları)**

Ermənistan İnfrastruktur Nazirliyinin məlumatına görə, Gümri-Qars dəmir yolunun Ermənistan hissəsinin (22 km) təmirinin dəyəri 2022-ci ildə təxminən 17 milyon dollar, 2025-ci ildə isə 32 milyon dollar olaraq qiymətləndirilib. Bildirilir ki, bu hissənin infrastrukturu bərbad vəziyyətə düşüb: şpal çürüyüb, relslər və digər avadanlıqlar paslanıb, yol və bitişik ərazi otla örtülüdür.

Mövcud məlumata görə, bütün bu arteriyanın modernləşdirilməsinin hər iki tərəfdən birgə həyata keçirilməsi mümkündür. Bundan əlavə, Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın İstanbulda keçirilən 3+3 regional məsləhət platformasının iclasında (oktyabr 2024) bildirdiyi kimi, ”Gümri-Qars dəmir yolunun istifadəyə verilməsi, Ermənistan və Azərbaycan arasında dəmir yolu bağlantısı ilə birlikdə, Fars körfəzi ilə Qara, Xəzər və Aralıq dənizləri arasında effektiv əlaqəni təmin edəcək”. Buna uyğun olaraq, ”Türkiyə ilə dinamik dialoq aparılır və məqsədi diplomatik münasibətlər qurmaq, sərhədləri açmaq və əlaqələri işə salmaqdır”.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan avqustun sonlarında oxşar bir fikri ifadə etmişdi: ”Rusiya, Azərbaycan, Ermənistan və Türkiyə arasında dəmir yolu şəbəkələrinin genişləndirilməsi bütövlükdə regional ticarətə çox müsbət təsir göstərəcək”.

Bundan əlavə, Gümrü-Qars xətti, Beynəlxalq Şimal-Cənub Nəqliyyat Dəhlizinin əlavə, cənub-qərb sektorunu təmsil edən Türkiyə-İraq limanları tranzit dəmir yolu dəhlizinə (”İnkişaf Yolu”) əlavə bir marşrutdur. Bundan əlavə, bu yeni sektor İran beynəlxalq nəqliyyat dəhlizi limanları (Xorrəmşəhr və Abadan) ilə bağlıdır.

Yerli mənbələr bildirir ki, Cənubi Qafqazda dövlətlərarası və tranzit arteriyalarının açılması Parsabaddan İmişliyə (təxminən 70 km) yeni İran-Azərbaycan dəmir yolu xəttinin tikintisini irəli aparır. Bu, Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin qərbi Xəzər sektorunun cənub-qərbi İran limanlarına (Abadan, Xorrəmşəhr, Bəndər-Deylam) ən qısa məsafədə çatmasına imkan verəcək.

Xatırladaq ki, 2024-cü ilin sentyabr ayında Rusiyanın VTB Layihə Ofisi bu dəmir yolu xətti üçün layihə təqdim etdi. Marşrut Rəşt ilə Astara limanı arasındakı 160 km-lik hissəyə alternativ kimi nəzərdən keçirilir və bu hissə dəfələrlə təxirə salınıb. Yeni layihə Rusiya, Azərbaycan və İran üçün ümumi olacaq 1520 mm-lik yol nəzərdə tutur. İlkin məlumata görə, belə bir xəttin tikintisi, ehtimal ki, Rusiyanın iştirakı ilə, gələn il üçün planlaşdırılır.



**(Foto-2: Beynəlxalq nəqliyyat dəhlizinin qərbi Xəzər sektorunun yeni hissəsi)**

Bundan əlavə, yuxarıda qeyd olunan arteriyaların açılması sözün əsl mənasında uzunmüddətli məqsədi olan ümumavrasiya tranzit sistemi yaradır. Cənubi Qafqaz Dəmir Yolunun (Rusiyanın Ermənistan Dəmir Yolunu idarə edən idarəsi) baş direktoru Aleksey Melnikovun sözlərinə görə, indi Çindən Ermənistana və Ermənistan vasitəsilə digər ölkələrə konteyner qatarlarının göndərilməsini təşkil etmək mümkündür. Melnikov çox güman ki, bu cür qatarların Orta Asiya- İran-Azərbaycan üzərindən tranzitini nəzərdə tutur. Alternativ olaraq, o, həmçinin Azərbaycan üzərindən tranziti istisna edən uzunmüddətli layihəyə- təxminən 250 km uzunluğunda Ermənistan (Meğri)- İran (Merand) dəmir yolunun tikintisinə də istinad edir.

Qeyd etmək lazımdır ki, 2010-cu illərin əvvəllərində qismən yenilənən bu layihə, əsasən maliyyələşdirmə ilə bağlı fikir ayrılıqlarına görə həyata keçirilməyib. Üstəlik, bu arteriya Ermənistanı birbaşa Beynəlxalq Nəqliyyat Dəhlizinə bağlayacaq və bununla da əlavə marşrut yaradacaq. O, həmçinin İran limanları ilə Qara dəniz hövzəsi arasında ən qısa əlaqəni təmin edəcək.

Cənubi Qafqaz Dəmir Yolları Direktorlar Şurasının sədri Aleksandr Mişarin 2018-ci ilin avqust ayının ortalarında bu layihə haqqında olduqca konkret danışmışdı: ”İrandan Ermənistana dəmir yolunun çəkilməsi texniki cəhətdən tamamilə mümkündür. Sadəcə üzərində işləməli və investisiya axtarmalıyıq”. O bildirib ki, belə bir layihənin həyata keçirilməsi növbəti 10 ilin nəticələrindən biri ola bilər.

O da diqqətəlayiqdir ki, məhz Cənubi Qafqaz magistral yollarının açılması zamanı, 12 noyabrda Rusiya Dəmir Yolları Rusiyadan Azərbaycana və Azərbaycan vasitəsilə Gürcüstana qara metallurgiya mallarının ixrac daşınması üçün tariflərdə 50% endirimi 2026-cı ilə qədər uzadıb.

Bir sözlə, Cənubi Qafqazdakı polad arteriyaların və onların qollarının sonuncu açılması Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin bir-biri ilə əlaqəli marşrutlarının geniş, şaxələnmiş sisteminin formalaşdırılmasına imkan verəcək.

Yeri gəlmişkən, bu gün Rusiya Xarici İşlər Nazirliyinin mətbuat katibi Mariya Zaxarova bildirib ki, Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin inkişafı Moskvanın Tehranla əməkdaşlıqda mütləq prioriteti olaraq qalır.

Dəhlizin şərq marşrutu ilə Rusiyadan İrana ilk qatarın gəlməsi ilə bağlı şərh verərkən, o, bu layihənin regional əhəmiyyət kəsb etdiyini və iki ölkə arasında Hərtərəfli Strateji Tərəfdaşlıq Sazişində əsas yer tutduğunu vurğulayıb.

Zaxarova qeyd edib ki, ”Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi Rusiya, Hindistan və İran arasında 12 sentyabr 2000-ci ildə hökumətlərarası müqavilə əsasında yaradılıb, inanıram ki, bu, hansı tərəfdaşların etibarlı hesab edilib-edilməməsi ilə bağlı fərziyyələri aradan qaldırır”.

Diplomatik nümayəndə vurğulayıb ki, Rusiya Federasiyası hər 3 dəhliz marşrutunun- qərb (Azərbaycan vasitəsilə), şərq (Qazaxıstan və Türkmənistan vasitəsilə) və Transxəzər (dəniz yolu ilə) marşrutunun eyni dərəcədə vacib olduğuna inanır.

O, xatırladıb ki, Rusiyadan İrana dəmir yolu ilə yük daşınması 2014-cü ildə, şərq marşrutu yaradıldığı vaxtdan bəri sistematik şəkildə həyata keçirilir.

Zaxarova həmçinin bildirib ki, noyabrın 10-da Tehran yaxınlığındakı yeni Aprin quru limanına yük daşıyan ilk qatar çatıb və bu, ictimaiyyətin diqqətini cəlb edən xəbər hadisəsinə çevrilib. Sonda o, bütün tərəflərin layihənin inkişafında maraqlı olduğunu və infrastrukturun təkmilləşdirilməsi və inzibati maneələrin aradan qaldırılması da daxil olmaqla, konstruktiv əməkdaşlığa hazır olduqlarını vurğulayıb.

Göründüyü kimi, Azərbaycanın da daxil olduğu Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi sistemi çoxşaxəli və çoxistiqamətlidir. Bu da region ölkələrinə bütün iqtiqamətlərdə və formalarda (dəniz yolu, quru yolu) dünyanın müxtəlif bölgələrinə birbaşa çıxış imkanı yaradır. Azərbaycan da daxil olmaqla region ölkələri bu şəbəkə vasitəsilə həm ticarət həcmini artıra, çatdırma müddətini qısalda bilər, eyni zamanda tranzit gəlirləri əldə edə bilər.

**Elçin Bayramlı**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi” istiqaməti çərçivəsində hazırlanıb.*

SON SƏHİFƏ
SƏS
18 noyabr
2025-ci il


# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Mətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744
7. Bakmətbuat MMC 0502644010

1 nüsxə 1 aylığı 8 AZN
6 aylıq 48 AZN
1 illik 96 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# "Dostluq inam və etibar üzərində qurulur"



***"Ümumiyyətlə, dostluq münasibətləri emosional və psixoloji xarakter daşıyan münasibətlərdir. Bu münasibətlərdə insanın real xarakteri və şəxsi xüsusiyyətləri əsas rol oynayır. Bəzən insanlar bir-birinə "dost" deyirlər, lakin əslində dostluğun mənasını dərindən dərk etmədən bu ifadəni işlədirlər". Bu sözləri SİA-ya açıqlamasında "Yeni Həyat" Humanitar və Sosial Dayaq İctimai Birliyinin sədri Nailə İsmayılova deyib.***

Onun sözlərinə görə, dostluq münasibətləri qarşılıqlı inam, etibar və səmimiyyət üzərində qurulmalıdır: "Ancaq bu gün baxsaq, insanlar arasındakı bu keyfiyyətlərin hansı səviyyədə olduğunu görmək çətindir. Müasir dövrdə insanlar sosial şəbəkələrdə bir-birinə "dost" desələr də, bu formal xarakter daşıyır. "Filankəsin dostluq təklifini qəbul etdim" və ya "filankəslə dost oldum" kimi ifadələr əsl dostluq münasibətini ifadə etmir. Əsl dostluq real həyatda qurulan münasibətlərdir. Bu dostluqlar əsasən uşaqlıqdan başlayır, insanlar bir-birini yaxından tanıyır, ailələr arasında da bağlılıq olur. Gərək dostlar bir-birinin xarakterini bilsin, qarşılıqlı anlayış və uyğunluq olsun. Belə münasibətlər uzun illər davam edə bilər — uşaqlıqdan yaşlılığa qədər. Təəssüf ki, bu gün qurulan dostluqlar çox vaxt səthi xarakter daşıyır. Bəzən insanlar yalnız müəyyən məqsədlər üçün dostluq qururlar, məqsəd bitdikdə isə münasibət də sona çatır. Bu isə səmimi dostluq deyil.

Həyat ritmi sürətlə dəyişir, zaman çatışmazlığı insan münasibətlərinə də təsir edir. Hətta "24 saatlıq gün belə bizə yetmir" deyə düşünürük. Bu da dərin münasibətlərin qurulmasına mane olur. Sonda onu demək istərdim ki, hər kəs dostluq münasibətində səmimi olmalı, qarşısındakına dürüst və anlayışla yanaşmalıdır. Məşhur bir misal var: "Dost dar gündə tanınar." Bu gün həmin "dar günü" gözləyən dostlar var, yoxsa o gündə dəstək olan dostlar? Bu, artıq şəxsi keyfiyyətlərdən və insanın mədəniyyətindən asılıdır".

*Günel Fərzəliyeva*

# Bakıda avtomobil qaçıran şəxslər yaxalanıb

***Sabunçu rayonu ərazisində paytaxt sakini olan bir nəfərin "Geely" markalı avtomobili qaçırılıb. Daxili İşlər Nazirliyindən SİA-ya verilən məlumata görə, polis əməkdaşlarının keçirdikləri tədbirlərlə əməli törətməkdə şübhəli bilinən T.Quliyev və E.Rəsulov avtomobillə birgə saxlanılıblar.***



Nəsimi rayonu ərazisində isə bir nəfərə məxsus "Tufan" markalı motosikleti qaçırmaqda şübhəli bilinən R.Baxşıyev nəqliyyat vasitəsi ilə birgə saxlanılıb. Araşdırmalar aparılır.

# Balığa tələb artır – bəs istehsalda vəziyyət necədir?



Son illərdə ölkədə dabaq xəstəliyinin yenidən qeydə alınması heyvandarlıq sektorunda ciddi narahatlıqlara səbəb olub. Xəstəliyin yayılma riskinin qarşısını almaq məqsədilə bir sıra regionlarda iri buynuzlu heyvanların satış məntəqələrinin və kənd təsərrüfatı bazarlarının müvəqqəti bağlanması zərurəti yaranıb. Bu vəziyyət həm istehsalçılar, həm də istehlakçılar arasında müəyyən psixoloji gərginlik yaradaraq bazarda alıcılıq davranışlarının dəyişməsinə səbəb olub. Nəticədə, əhali daha təhlükəsiz hesab etdikləri toyuq və balıq məhsullarına üstünlük verməyə başlayıb.

## Bəs daxili tələbatı qarşılaya bilirikmi?

Məsələ ilə bağlı iqtisadçı Asif İbrahimov SİA-ya açıqlamasında bildirib ki, son dövrlərdə dabaq xəstəliyinin yayılması ilə bağlı iri buynuzlu heyvanların satış məntəqələrində və regionlardakı bir çox bazarlarda fəaliyyət müvəqqəti dayandırılıb:

"Bu vəziyyət həm heyvan sahibləri, həm də istehlakçılar arasında müəyyən narahatlıq yaradıb. İnsanların gündəlik qida təhlükəsizliyi ilə bağlı narahatlıqları artdığı üçün onlar daha çox etibarlı hesab etdikləri alternativ məhsullara — toyuq və balıq ətinə — üstünlük verməyə başlayıblar. Lakin tədqiqatlarımız göstərir ki, hazırda Azərbaycanda balıq bazarında daxili tələbat tam şəkildə ödənilmir. Bunun həm obyektiv, həm də subyektiv səbəbləri mövcuddur. Obyektiv səbəblərə ölkədə balıqçılıq və akvakultura sahəsinin kifayət qədər inkişaf etməməsi, su ehtiyatlarının məhdudluğu, texnoloji avadanlıqların yenilənməsinin zəruriliyi və bəzi bölgələrdə ekoloji balansın pozulması daxildir. Subyektiv amillər isə sahəyə qoyulan investisiyaların azlığı, fermerlərin bu istiqamətdə yetərincə maarifləmməməsi, müasir yetişdirmə metodlarının geniş tətbiq olunmaması və bazarda rəqabət mexanizmlərinin tam formalaşmaması ilə bağlıdır.

Nəticədə, ölkədə balığa olan tələbat artsa da, yerli istehsal bu tələbi ödəməkdə çətinlik çəkir və idxaldan asılılıq davam edir.



İQTİSADÇI AÇIQLADI

Bu isə həm qiymətlərin dəyişkənliyinə, həm də təchizat zəncirində müəyyən risklərin yaranmasına gətirib çıxarır. Mütəxəssislərin fikrincə, balıqçılıq sektorunun inkişaf etdirilməsi, akvakultura təsərrüfatlarının genişləndirilməsi və bu sahəyə dövlət dəstəyi mexanizmlərinin gücləndirilməsi gələcəkdə daxili bazarın sabitləşdirilməsinə ciddi töhfə verə bilər".

*Arzu Qurbanlı*

Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 3000